# Səyyar qəbullar

Yaşadığımız zaman irəlilədikcə, insanların həyat şəraiti yaxşılaşdıqca, yaşayış səviyyəsinin də özünəməxsus problemləri meydana çıxır. Hər dövrün öz problemləri də, həlli vacib məsələləri də insan amilinin həyatı üçün ardıcıl olaraq həll olunur. Bu xüsusilə xeyirxah insanların xeyirxah əməlləri nəticəsində öz həllini tapır. Ayrı-ayrı insanlar, aidiyyatı təşkilat, idarə və müəssisələr qayğıya ehtiyacı olan şəxslərə, ailələrə həmişə yardımçı olurlar.

Rayonumuzun sakinlərinin rifah halının yaxşılaşdırılması və ictimai həyatın hərtərəfli inkişafı, mədəni-məişət qayğıları, onların problemləri rayon rəhbərliyinin həmişə maraq dairəsindədir. Elə buna görə də hər ay Qəbələ Rayon İcra Hakimiyyəti başçısı Səbuhi Abdullayev tərəfindən ayrı-ayrı qəsəbə və kənd əhalisi ilə səyyar qəbullar təşkil olunur.

Bu ilin iyul ayından səyyar qəbul Qəbələ şəhərində, Savalan, Soltannuxa və Bayramkoxalı kəndlərində keçirilmişdir. Bu qəbullar zamanı Səbuhi Abdullayev kənd sakinlərini qəbul etmiş, onların müraciətlərini dinləmişdir. Hüquq mühafizə orqanlarının, Qəbələ rayon İH yanında ictimai şura nümayəndəliyinin, xidmət sahələrinin rəhbərləri və kənd ictimaiyyətinin nümayəndələrinin iştirak etdiyi belə səyyar qəbullar zamanı icra hakimiyyətinin başçısı tərəfindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sosial-iqtisadi sahədə qazanılan nailiyyətlərdən, həmin işlərin həyata keçirilməsində göstərilən xüsusi diqqət və qayğıdan, eləcə də, Qəbələ rayonunda aparılan tikinti-quruculuq işlərindən, əhalinin sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərdən ətraflı danışılır. Səyyar qəbullar zamanı kənd sakinləri tərəfindən qaldırılan məsələlərin həll edilməsi istiqamətində RİH başçısı tərəfindən aidiyyəti üzrə müvafiq tapşırıq və tövsiyələr verilir. Görüş tədbirlərində çıxış edən sakinlər onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirərək ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirirlər.


Savalan kəndi.




Bayramkoxalı kəndi.


Qəbələ şəhəri.


Soltannuxa kəndi.

**"Qəbələ"**
**Fotolar Səhrab Umuyevindir.**

# Vətəndaş qəbulu

Rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev tərəfindən növbəti dəfə keçirilən qəbulda Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinin, qazilərin, eləcə də vətəndaşların müraciətləri və irəli sürdükləri təkliflər dinlənilmişdir. Qaldırılan məsələlərin bir qismi yerindəcə həll olunmuş, digərlərinin həlli nəzarətə götürülmüşdür. Şəhid valideynləri və qazilər onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.





# Növbəti qəbul



28 iyul 2023-cü il tarixdə Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev tərəfindən növbəti dəfə vətəndaşların qəbulu keçirilib. Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinin, qazilərin də iştirak etdiyi qəbulda vətəndaşların müraciətləri və irəli sürdükləri təkliflər RİH başçısı tərəfindən dinlənilmiş, bir qismi yerindəcə həll olunmuş, digərlərinin həlli nəzarətə götürülmüşdür.

# Mətbuat işçiləri ilə görüş keçirilmişdir

22 iyul 2023-cü il Milli Mətbuat Günü münasibətilə Qəbələ Rayon İcra Hakimiyyətində "Qəbələ" qəzeti redaksiyasının kollektivi ilə görüş keçirilmişdir. Görüşdə çıxış edən rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev mətbuat işçilərini "Milli Mətbuat Günü" münasibətilə təbrik etmiş, "Əkinçi" qəzeti ilə əsası qoyulan Azərbaycan Mətbuatının yaranmasının görkəmli maarifpərvər ziyalı Həsən Bəy Zərdabinin adı ilə bağlı olduğunu qeyd edərək, mətbuatın keçdiyi çətin və şərəfli həyat yolundan söhbət açmış, yerli mətbuat orqanı olan "Qəbələ" qəzetinin qədim tarixi olduğunu vurğulamış və redaksiyanın əməkdaşlarına səmərəli fəaliyyətlərində uğurlar arzulamışdır. Mətbuat işçiləri adından çıxış edən "Qəbələ" qəzetinin redaktoru Azad Məmmədov mətbuta işçilərinə göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə öz minnətdarlığını bildirmişdir.



# Avropa çempionatının bürünc mükafatçısı ilə görüş keçirilmişdir

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev Macarıstanın Kaposvar şəhərində keçirilən U-15 Avropa çempionatının sərbəst güləş idman növü üzrə mübarizədə bürünc medala layiq görülmüş Mirzəbəyli kənd tam orta məktəbin X sinif şagirdi, "Qəbələ" idman klubunun idmançısı Veyselov Rəşad Nizami oğlu və onun məşqçisi Mustafayev Fərid Səməd oğlu ilə görüş keçirmişdir. Rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev görüşdə çıxış edərək Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın idmanın inkişafını, idmançıları həmişə diqqətdə saxladığını və bu istiqamətdə mühüm tədbirlər həyata keçirildiyini vurğulamış, Rəşad Veysəlovu qazandığı qələbəyə görə təbrik edərək, ona gələcək həyatında və təhsilində uğurlar arzulamışdır. Rayon icra hakimiyyətinin başçısı idmanda qazandığı uğurlara görə gənc idmançı Rəşad Veysəlovu və onun məşqçisi Fərid Mustafayevi Qəbələ Rayon İcra Hakimiyyətinin Fəxri Fərmanı ilə təltif etmişdir. Sonda idmançı Rəşad Veysəlov və məşqçi Fərid Mustafayev ölkə rəhbərinə idmana göstərdiyi diqqət və qayğıya görə minnətdarlıqlarını bildirmişlər.

